# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) arasında 2022-ci ildə Azərbaycan Respublikasında Çoxgöstəricili Klaster Sorğusunun keçirilməsinə dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 388 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydaları"nın 2.8-ci bəndinə uyğun olaraq:

1. "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) arasında 2022-ci ildə Azərbaycan Respublikasında Çoxgöstəricili Klaster Sorğusunun keçirilməsinə dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Yaqub oğlu Budaqova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində qeyd olunan Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Yaqub oğlu Budaqova verildiyi barədə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fonduna (UNICEF) bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı
ÜMUMİ ŞÖBƏ

Bakı şəhəri, "16" fevral 2022-ci il

№ 94s

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
Daxilolma № 74
1 vərəq
18 02 2022